**“TƏHSİLİN TƏŞKİLİ VƏ PLANLAŞDIRILMASI”**
**(5802.01) ixtisası üzrə fəlsəfə doktoru imtahanının**
**S U A L L A R I**

**1.** Təhsil müəssisəsinin idarəedilməsi anlayışı və onun elmi-nəzəri əsaslarının təhlili
**2.** İdarəetmə nəzəriyyələrinin (klassik, neoklassik və müasir yanaşmalar) elmi-nəzəri təhlili və onların təhsil müəssisələrinin idarə olunmasında tətbiq xüsusiyyətləri
**3.** Təhsil müəssisəsinin idarə edilməsinin prinsiplərinin (vahidlik, optimallıq, demokratikləşmə, planlılıq və s.) səciyyəvi xüsusiyyətlərinin təhlili
**4.** Təhsilin idarəolunması funksiyalarının (təhlil və proqnozlaşdırma, planlaşdırma, təşkiletmə, nəzarət və tənzimləmə) elmi-nəzəri təhlili
**5.** Təhsil müəssisəsinin idarə edilməsi metod və üsullarının (pedaqoji-psixoloji, sosial-pedaqoji, təşkilati və sosial-iqtisadi) səciyyəvi xüsusiyyətlərinin təhlili
**6.** Təhsil müəssisəsi rəhbərinin idarəetmə metodları (avtoritar, demokratik, liberal) və onların pedaqoji prosesə təsirinin əsaslandırılması
**7.** Təhsilin idarə edilməsi və tənzimlənməsinin normativ-hüquqi əsaslarının elmi-nəzəri təhlili
**8.** Azərbaycan Respublikasının Konstitusiyasına əsasən (maddə 42) təhsil hüququnun pedaqoji, sosial və hüquqi aspektlərinin təhlili
**9.** Təhsil haqqında Azərbaycan Respublikasının Qanununun əsas müddəalarının təhsil siyasətinin formalaşmasına təsirinin elmi-nəzəri təhlili
**10.** Azərbaycan Respublikasının təhsil sisteminin quruluşunun struktur-funksional modeli və onun müasir təhsil idarəçiliyində tətbiq imkanlarının təhlili
**11.** Təhsilin məzmunu və təşkili üzrə normativ tələblərin (kurikulum, dövlət standartları) səriştəyə əsaslanan yanaşma kontekstində elmi-pedaqoji təhlili
**12.** Təhsil sisteminin idarə olunmasının dövlət-ictimai xarakterinin konseptual əsaslarının elmi-nəzəri təhlili
**13.** Təhsil subyektlərinin hüquq və vəzifələrinin normativ-hüquqi əsaslarının pedaqoji prosesdə balanslaşdırılması problemlərinin təhlili
**14.** Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu əsasında məktəbəqədər təhsilin idarə olunmasının pedaqoji və institusional modelinin təhlili
**15.** Məktəbəqədər təhsil sistemində idarəetmə, sosial müdafiə və iştirakçı hüquqlarının qarşılıqlı əlaqəsinin elmi-pedaqoji əsaslandırılması
**16.** Ümumi təhsil haqqında Azərbaycan Respublikasının Qanunu kontekstində ümumi təhsilin idarə olunmasının sistemli və funksional təhlili
**17.** Ümumi təhsil müəssisələrində idarəetmə mexanizmlərinin (sertifikatlaşdırma, nəzarət, sosial müdafiə) keyfiyyət təminat sistemində rolu və səmərəliliyinin qiymətləndirilməsi

**18.** Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının strateji istiqamətləri və onların təhsil idarəetməsinin modernləşdirilməsində rolunun təhlili

**19.** Ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın (əsasnamə, standartlar və s.) institusional muxtariyyət və idarəetmə səmərəliliyi baxımından təhlili

**20.** Ali təhsil müəssisələrində tədris və elmi fəaliyyətin qarşılıqlı əlaqəsinin elmi-pedaqoji təhlili

**21.** Ali təhsil müəssisələrinin müstəqilliyi (akademik və institusional muxtariyyət) anlayışının elmi-nəzəri təhlili

**22.** Ali təhsil müəssisələrində təhsilalanların, dinləyicilərin və işçilərin hüquq və vəzifələrinin normativ-hüquqi əsaslarının pedaqoji və idarəetmə baxımından təhlili

**23.** Ali təhsil müəssisələrinin beynəlxalq fəaliyyətinin (akademik mobillik, əməkdaşlıq, inteqrasiya) qloballaşma kontekstində elmi-nəzəri təhlili

**24.** Məktəbdaxili idarəetmənin mahiyyəti, prinsipləri və funksional strukturunun elmi-nəzəri təhlili

**25.** Təhsil müəssisəsi rəhbərinin (məktəb direktorunun) fəaliyyətinin struktur-funksional modeli və onun səciyyəvi xüsusiyyətlərinin təhlili

**26.** Məktəb direktorunun funksiyalarının (planlaşdırma və proqnozlaşdırma, təşkilati-sərəncamvermə, nəzarət-metodik, maliyyə-təsərrüfat) elmi-nəzəri təhlili və qarşılıqlı əlaqəsinin əsaslandırılması

**27.** Məktəb direktorunun peşə kompetensiyalarının m\zmunu və onların səmərəli idarəetməyə təsirinin elmi-pedaqoji təhlili

**28.** Təlim-tərbiyə işləri üzrə direktor müavininin hüquq və vəzifələrinin pedaqoji idarəetmə sistemində funksional yerinin təhlili

**29.** Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının fəaliyyətinin məzmunu və onun tərbiyə prosesində rolunun elmi-pedaqoji təhlili

**30.** Məktəbdə kollegial idarəetmə orqanlarının (pedaqoji şura, məktəb şurası, ümumi yığıncaq) fəaliyyətinin elmi-nəzəri təhlili

**31.** Valideyn birliklərinin təhsilin idarəedilməsində iştirakının sosial-pedaqoji əsasları və səmərəlilik göstəricilərinin təhlili

**32.** Uşaq və gənclər birliklərinin və şagird özünüidarə orqanlarının məktəb idarəetməsində rolunun elmi-pedaqoji təhlili

**33.** Məktəbdə həmkarlar təşkilatının fəaliyyətinin sosial-iqtisadi və pedaqoji aspektlərinin təhlili və idarəetmə prosesinə təsiri

**34.** Təhsil müəssisəsində idarəetmə prosesinin mahiyyəti, quruluşu və pedaqoji sistemdə funksional rolunun elmi-nəzəri təhlili

**35.** İdarəetmə prosesində pedaqoji təhlil, proqnozlaşdırma və məqsədin müəyyənləşdirilməsi mərhələlərinin sistemli təhlili və onların planlaşdırma ilə qarşılıqlı əlaqəsinin əsaslandırılması

**36.** İdarəetmə prosesinin əsas funksiyalarının (təhlil və proqnozlaşdırma, təşkiletmə, nəzarət və tənzimləmə) elmi-nəzəri təhlili və təhsil müəssisəsinin səmərəli fəaliyyətində rolu

**37.** Dərsin təhlili növlərinin (qısa, geniş və aspekt təhlili) metodoloji əsasları, metodikası və texnologiyalarının elmi-pedaqoji təhlili və onların təlim keyfiyyətinin artırılmasında rolu

**38.** Təhsil prosesinin nəticəyönlü planlaşdırılmasının mahiyyəti, prinsipləri və pedaqoji idarəetmədə rolunun elmi-nəzəri təhlili

**39.** Təhsil prosesi subyektlərinin fəaliyyətinin planlaşdırılmasının məzmunu, formaları və təşkil mexanizmlərinin elmi-pedaqoji təhlili

**40.** Təhsil müəssisəsinin illik fəaliyyət planı və onun səmərəliliyinin qiymətləndirilməsi meyarları

**41.** Tədris ilinin yekunlarının və təlim prosesinin təşkili səviyyəsinin pedaqoji təhlili metodologiyası və onun təhsil keyfiyyətinin artırılmasında rolu

**42.** Tərbiyə işinin planlaşdırılması və monitorinq nəticələrinin təhlilinin elmi-pedaqoji əsasları və tərbiyə prosesinin səmərəliliyinə təsiri

**43.** Təhsil müəssisəsində pedaqoji-psixoloji və tibbi-sosial xidmətlərin təşkili və onların təlim-tərbiyə prosesinin təminatında rolunun təhlili

**44.** Məktəbin valideyn və ictimaiyyətlə işinin təşkili və onun təhsil idarəetməsində rolunun elmi-pedaqoji təhlili

**45.** Təhsil müəssisəsində idarəetmə işinin (kitabxana, maddi-texniki və maliyyə təminatı) təhlilinin elmi-nəzəri əsasları və səmərəli idarəetmədə rolu

**46.** Təhsil müəssisəsinin elmi-metodik fəaliyyətinin təşkili, metodbirləşmələrin funksiyaları və onların müəllim peşəkarlığının inkişafında rolunun təhlili

**47.** Müəllimin peşəkar inkişafının (özünütəhsil, fərdi inkişaf planı, qabaqcıl təcrübənin öyrənilməsi) planlaşdırılmasının elmi-nəzəri əsasları

**48.** Məktəbdaxili idarəetmənin təşkili və tənzimlənməsi mexanizmlərinin elmi-nəzəri təhlili və onların pedaqoji prosesin səmərəliliyinə təsirinin əsaslandırılması

**49.** İdarəetmə prosesinin təşkili modellərinin (xətti – şaquli və üfüqi, kollegial, seqment, matris və modul) müqayisəli təhlili və təhsil müəssisələrində tətbiq imkanlarının qiymətləndirilməsi

**50.** Məktəbdə təlim prosesinin təşkili, təlim keyfiyyətinin yüksəldilməsi yolları və müasir təlim texnologiyalarının tətbiqinin elmi-pedaqoji təhlili

**51.** Tərbiyə prosesinin idarə olunmasının (məqsədin müəyyənləşdirilməsi, planlaşdırma, təşkiletmə, nəzarət və nəticələrin təhlili) elmi-nəzəri təhlili və səmərəliliyinin qiymətləndirilməsi

**52.** Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyasının elmi-nəzəri əsaslarının təhlili və müasir təhsil sistemində rolu

**53.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin (məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə) məqsəd, vəzifə və xüsusiyyətlərinin müqayisəli təhlili və onların təhsil keyfiyyətinə təsirinin qiymətləndirilməsi

**54.** Qiymətləndirmə vasitələrinin hazırlanması, şagird nailiyyətlərinin monitorinqi və kurikulum əsaslı qiymətləndirmənin elmi-pedaqoji təhlili

**55.** Ali və orta ixtisas təhsilində kredit sistemi və çoxballı qiymətləndirmə texnologiyasının elmi-nəzəri əsasları, onun təhsil nəticələrinin qiymətləndirilməsi və qərarvermə prosesində rolunun təhlili

**56.** Milli qiymətləndirmənin mahiyyəti, məqsədləri, məzmunu və tətbiq mexanizmlərinin elmi-pedaqoji təhlili və onun təhsil siyasətində qərarvermə prosesinə təsirinin əsaslandırılması

**57.** Beynəlxalq qiymətləndirmə proqramlarının (PISA, TIMSS, PIRLS və s.) məqsəd, məzmun və metodoloji xüsusiyyətlərinin müqayisəli təhlili və onların milli təhsil sistemlərinin inkişafına təsirinin qiymətləndirilməsi

**58.** Xarici qiymətləndirmə (dövlət və beynəlxalq qiymətləndirmə mexanizmləri) sistemlərinin ümumtəhsil müəssisələrinin reytinqinin formalaşmasında rolu və onların məktəb fəaliyyətinə təsirinin elmi-pedaqoji təhlili

**59.** Təhsil prosesində reytinq sisteminin metodoloji əsasları, onun elmi-nəzəri mahiyyəti və ali təhsil müəssisələrinin (sistem gücü, əlyetərliyi, aparıcı universitetlər və iqtisadi kontekst) reytinq göstəriciləri üzrə qiymətləndirilməsinin təhlili

**60.** Məktəbdə metodik işə rəhbərliyin elmi-nəzəri əsasları, metodik işin məqsədi, məzmunu və təşkilinin elmi-pedaqoji əsasları və onların pedaqoji prosesin keyfiyyətinə təsiri

**61.** Müəllimin peşəkarlığının yüksəldilməsi (o cümlədən sertifikasiya sistemi), pedaqoji etika, ünsiyyət və əməkdaşlıq mədəniyyəti, eləcə də pedaqoji münaqişələrin idarə olunmasının elmi-nəzəri təhlili və təhsilin idarə edilməsində dəyərlər sisteminin rolu

**62.** Təhsil müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyətinin elmi-nəzəri əsasları, maliyyələşdirilmə mexanizmləri (dövlət, bələdiyyə və özəl sektor) və təhsil müəssisəsinin sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətlərinin təhlili

**63.** Təhsil sistemində mülkiyyət münasibətlərinin (dövlət, bələdiyyə, özəl), o cümlədən daşınan və daşınmayan əmlakın və əqli mülkiyyətin idarə olunmasının elmi-pedaqoji təhlili

**64.** Məktəbin tədris-maddi bazasının (bina, sinif otaqları və s.) formalaşdırılması, istifadəsi və pedaqoji prosesin keyfiyyətinə təsirinin elmi-nəzəri təhlili

**65.** Məktəbin hesabat sisteminin idarə olunmasının elmi-nəzəri əsasları və təhsil müəssisəsinin inkişafında rolunun təhlili

**Suallar institutun Təhsilin iqtisadiyyatı və idarəolunması şöbəsinin 01 iyun 2026-cı il tarixli (Protokol №07) iclasında müzakirə edilərək təsdiq edilmişdir.**